**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ RUSİYA FEDERASİYASI İLƏ MƏDƏNİ ƏLAQƏLƏRİ (1991-2013)

İxtisas: **5507.01 – Beynəlxalq münasibətlər tarixi**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Yaqut Yaqub qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan – Rusiya əlaqələri tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**İkirəm Kərim oğlu Ağasiyev**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Fərrux qızı Ruintən**

tarix üzrə fəlsəfə doktoru
**Əzim İsgəndər oğlu Heydərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
________________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**
________________

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
________________ **İsmayıl Məhərrəm oğlu Musa**

# I. DİSSERTASIYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Tarix elminin aktual problemlərindən birini xalqlar arasında qarşılıqlı münasibətlərin tarixinin araşdırılması təşkil edir. Bu münasibətlərin nəzəri əhəmiyyəti xalqların tarixində qarşılıqlı əlaqələrin rolunun elmi şəkildə dərk edilməsilə müəyyənləşir. Müxtəlif xalqlar və ölkələr arasında mədəni əlaqə və münasibətlərin öyrənilməsi tarixin bütün dövrlərində mühüm əhəmiyyət kəsb edən nəzəri problemlərdən biri olmuşdur. Xüsusən, indiki mərhələdə millətlər və xalqlar arasında siyasi, iqtisadi, mədəni əlaqələrin getdikcə genişləndiyi, qloballaşmanın yüksək vüsət aldığı bir dövrdə, bu problem daha aktual səciyyə daşımağa başlamışdır. Bununla əlaqədar olaraq Azərbaycan-Rusiya mədəni əlaqələrinin öyrənilməsi təkcə elmi deyil, həm də siyasi maraq kəsb edir.

Azərbaycan dünyanın 100-dən çox ölkəsi ilə mədəni əməkdaşlıq əlaqələri yaratmışdır. Bu ölkələr arasında coğrafi, tarixi-mədəni baxımdan bizə yaxın olan keçmiş SSRİ respublikaları, birinci növbədə Rusiya Federasiyası xüsusi yer tutur.

Ölkələrimiz arasında qarşılıqlı münasibətlərdə beynəlxalq hüququn prinsipləri və normalarının aliliyi, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı, hər bir ölkənin səciyyəvi milli cəhətlərinin də nəzərə alınması əsas istiqamətlərdən biridir.

Qarşılıqlı faydalı mədəni-humanitar əməkdaşlıq ölkənin xarici siyasəti qarşısında duran məqsəd və vəzifələrin təmin olunmasında, xarici siyasətin səmərəliliyinin artırılmasında mühüm rol oynaya bilər. Xüsusən eyni coğrafiyada yerləşən, çoxəsrlik siyasi, iqtisadi, mədəni əlaqələrə malik olan xalqlar arasında mədəni əlaqələrin qorunub saxlanılması və inkişaf etdirilməsi dünyada və regionda sülhün, əmin-amanlığın, tərəqqinin əsas şərtlərindən biridir. Bu baxımdan ölkəmizin Rusiya Federasiyası ilə mədəni əlaqələrinin tarixinin

öyrənilməsi mühüm elmi-nəzəri və siyasi əhəmiyyət kəsb edir. Azərbaycan xalqı ilə Rusiya xalqları arasında mədəni-mənəvi əlaqələrin qədim tarixi vardır. Bu hər şeydən əvvəl hər iki xalqın qonşu olmaları və tarixin uzun dövrü ərzində eyni dövlətin tərkibində yaşamaları ilə əlaqədardır. Azərbaycanın ümümbəşəri mədəni sərvətlərə yiyələnməsində rus dili də körpü rolunu oynamışdır.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra qonşu xalqlarla siyasi, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsində maraqlı olduğunu daim sübut etmişdir. Azərbaycanın şimal qonşusu Rusiya ilə əlaqələrinin təqribən 200 illik tarixi hər iki xalqın vahid siyasi-ictimai məkanda mövcud olması, əvvəlcə Çar Rusiyasının, sonra isə SSRİ-nin tərkibində olmaları ilə səciyyələnir. Bu dövr ərzində Azərbaycan və rus xalqları sıx mədəni ünsiyyətdə olmuş, hər iki xalqın mədəniyyəti qarşılıqlı şəkildə inkişaf edərək zənginləşmişdir.

Sovet İttifaqının süqutu ilə müstəqillik qazanmış Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı siyasi-mədəni münasibətlərdə beynəlxalq hüquqa əsaslanan, müstəqil dövlətlər kimi yeni dövr başladı. Təəssüf ki, müstəqilliyin ilk illərində iki dövlət arasındakı ziddiyyətlər, tarixi ənənələrə söykənən Azərbaycan-Rusiya siyasi-mədəni əlaqələrinə böyük zərbələr vurdu. 1993-cü ildə Azərbaycanın ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra bu ziddiyyətlər tədricən aradan qaldırılmağa başladı. Azərbaycan dövlətinin rəhbəri kimi elə ilk çıxışında Heydər Əliyev ölkəmizin qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaratmalı olduğunu qeyd etmiş və göstərmişdir[1].

2001-ci ildə Vladimir Putinin Rusiya Federasiyasının Prezidenti seçilməsindən sonra qarşılıqlı əməkdaşlığın yeni mərhələsi başlanmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi

---

[1] Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. –Bakı: Azərnəşr, – c.1. –1997. – 601 s. – s.12

üçün bütün imkanlardan istifadə etmişdir. Prezident kimi Rusiyaya ilk səfərindən sonra Heydər Əliyev qeyd edirdi ki, Azərbaycanla Rusiya arasında çox yüksək səviyyədə siyasi dialoq, ikitərəfli münasibətlərdə, regional siyasətlə bağlı məsələlərdə qarşılıqlı anlaşma var. İqtisadi və humanitar sahədə əməkdaşlıq çox uğurla inkişaf edir. Azərbaycanda rus mədəniyyətinin, rus dilinin qorunmasına böyük diqqət yetirilir və bu siyasət davam etdiriləcəkdir. O, deyirdi: *"Mən məmnunluqla deməliyəm ki, Rusiya və Azərbaycan rəhbərliyinin yekdil fikrincə, ölkələrimiz arasındakı münasibətlər qonşuların münasibətlərinə nümunə ola bilər. Bizim aramızda həll olunmamış heç bir məsələ yoxdur"*[2].

İkitərəfli münasibətlərin hüquqi bazasının əsas sənədini 1997-ci il iyulun 3-də imzalanmış "Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə" təşkil edir[3]. Rusiya Azərbaycanın mühüm strateji tərəfdaşıdır. İki dövlət arasında münasibətlərin əsasını bərabər hüquq və qarşılıqlı hörmət, mehriban qonşuluq prinsipləri, çoxəsrlik dostluq ənənələri təşkil edir. Qarşılıqlı əməkdaşlığın inkişafı Cənubi Qafqaz və Xəzər regionunda sabitlik və təhlükəsizliyin təmin edilməsinə təsir göstərir. İki dövlət arasında yüksək səviyyədə əməkdaşlıq davam edir.

Azərbaycan Rusiyanın 70-dən çox subyekti ilə regionlararası əlaqələr saxlayır.

1993-cü ildən etibarən iki qonşu xalq arasında mədəni əməkdaşlıq daha da genişlənərək yeni formalarla zənginləşmişdir. 2008-ci ildən Bakı şəhərində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, 2015-ci ildən isə İ.M.Seçenov adına Moskva Birinci Dövlət Tibb Universitetinin filialı fəaliyyət göstərir. Hər il Azərbaycanda Rusiyanın

---

[2] Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. –Bakı: Azərnəşr, – c.3. –1997. – 488 s. s.16.

[3] Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. –Bakı: Azərnəşr, – c.10. –2002. – 472 s. s.102.

tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə böyük, mühüm tədbirlər həyata keçirilir. Rusiyanın müxtəlif şəhərlərində Azərbaycanın mədəniyyət kollektivlərinin çıxışları, rəngarəng mədəni tədbirlərin təşkili artıq ənənə halını almışdır.

Müstəqillik dövründə Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə mədəniyyət sahəsində qarşılıqlı əlaqələrində böyük təcrübə toplanmışdır. Bu təcrübənin araşdırılması və təhlili, Azərbaycanın Rusiya və MDB dövlətləri ilə qarşılıqlı münasibətlərinin tədqiqi, həmçinin dövlətimizin beynəlxalq mədəni-humanitar əlaqələrini öyrənmək, nəticələr çıxarmaq və bu əsasda müəyyən tövsiyyə və təkliflər irəli sürmək baxımından mühüm elmi aktuallıq kəsb edən məsələdir.

Azərbaycanın Rusiya ilə münasibətlərinin tarixi, xüsusən 1991-ci ildən başlayan müstəqil dövlətlərarası münasibətləri həm Vətən tarixşünaslığında, həm də Rusiya tarixşünaslığında yetərincə araşdırılmışdır. Lakin bu münasibətlərin daha çox siyasi aspektləri tədqiqatlara cəlb olunmuş, mədəni-humanitar sahələri əhatə edən qarşılıqlı əlaqələr ya ümumi şəkildə araşdırılmış, ya da xronoloji cəhətdən daha məhdud zaman çərçivəsini əhatə etmişdir.

Azərbaycanın Rusiya ilə əlaqələri tarixinə milli tarixşünaslığımızda bir çox əsərlər həsr edilmişdir. Z.İbrahimovun, D.Qüdrətovun, Ə.Quliyevin, Y.Mahmudovun, T.Mustafazadənin, S.Sayadovun, N.Axundovanın, M.Qasımlının, A.Hüseynovun, M.İsgəndərovanın, F.Tahirovanın, M.İbrahimovun monoqrafiya, kitab və məqalələrində[4] bu əlaqələrin tarixinin siyasi, iqtisadi, mədəni

[4]İbrahimov, Z. Azərbaycan və rus xalqlarının dostluğu tarixindən // – Bakı: Təbliğatçı, – 1943, №7. – s.81-82. ; Qüdrətov, D. Azərbaycanın qardaş sovet respublikaları ilə iqtisadi və mədəni əməkdaşlığı: 1920-1932-ci illər /D.Qüdrətov. – Bakı: Elm, – 1973. – 278 s.; 188. Mahmudov, Y. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər) /Y.Mahmudov. – Bakı: Təhsil, – 2006. – 416 s.; Quliyev, Ə.N. Azərbaycan-Rusiya münasibətləri tarixindən: XV-XVIII əsrlər /Ə.N.Quliyev. – Bakı: Bilik Cəmiyyəti, – 1958. – 52 s.;

aspektləri öyrənilmişdir. A.Alməmmədovun, M.Cəfərin, Ə.Qəhrəmanovun, Ş.Qurbanovun, K.Talıbzadənin, S.Əsədullayevin, M.Sadıqovun əsərlərində[5] isə Azərbaycan-rus ədəbi əlaqələri təhlil edilmişdir.

A.Abbasbəylinin, N.Abbasovun, K.Abdullayevin, İ.Hüseynovanın, M.Qasımlının, Y.Mahmudovun, F.Məmmədovun, S.Məmmədəliyevanın, T.Əhmədovanın, S.Məmmədovanın və başqa müəlliflərin əsərlərində[6] müstəqillik

---

Mustafazadə, T. Azərbaycan -Rusiya münasibətləri (XVIII əsrin ikinci yarısı - XIX əsrin əvvəlləri) /T.Mustafazadə. – Bakı: Şərq-Qərb, – 2013. – 528 s.; Sayadov, S. XX əsr: Azərbaycan və dünya /S.Sayadov. – Bakı: Elm, 2006. – 186 s.; İbrahimov, M.Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər probemi (XX əsrin sonu-XXI əsrin əvvəlləri) /M.İbrahimov. – Bakı: Turxan NPB, – 2020. – 224 s.; Ахундова, Н. Из истории развития культурных связей Азербайджана с Россией и другими государствами в 60-е годы XX – начале XXI вв. // Материалы Международной научной конференциии, посвященной 25-летию образования Республики Ингушетия. – Магас: 2017, с.56-60.; Гасымлы, М.Дж. Азербайджан в международных культурных связях (1946-1990 гг.) /М.Дж.Гасымлы. – Тбилиси: Артанучи, – 2005. – 300 с.; Гусейнов, А. Азербайджано-русские отношения XV-XVII веков /Гусейнов А. – Баку: Изд. АН, – 1963. – 162 с.; Искендерова, М.С. Азербайджано-русские отношения XVIII – начала XIX вв. в азербайджанской и русской историографии (20-80-е годы XX века) /М.С.Искендерова. – Баку: Элм, – 2009. – 440 с.; Таирова, Ф. Дмитрий Шостакович и Азербайджанская музыкальная культура /Ф Таирова. – Баку: Нурлан, –2006. –304 с.

[5] Alməmmədov, A. Azərbaycan-rus ədəbi əlaqələri (1900-1920-ci illər) / A. Alməmmədov. –Bakı: Yazıçı, –1982. –214 s.; Alməmmədov, A. Lev Tolstoy və Azərbaycan ədəbiyyatı / Alməmmədov A. – Bakı: Yazıçı, –1972. – 112 s.; Qəhrəmanov, Ə. Rus-Azərbaycan ədəbi əlaqələrinə dair /Ə.Qəhrəmanov. – Bakı: Azərnəşr, – 1962. – 124 s.; Qurbanov, Ş. A.S.Puşkin və Azərbaycan /Ş.Qurbanov. – Bakı: Azərnəşr, – 1959. – 137 s.; Talıbzadə, K. Qorki və Azərbaycan /K.Talıbzadə. – Bakı: EA nəşriyyatı, – 1959. – 215 s.; Асадуллаев, С. М.Горький и Азербайджан // – Баку: Литературный Азербайджан, – 1961. № 2, – с.148-154.; Sadıqov, A. Rusiyada Azərbaycan mədəniyyətinə böyük maraq var // Panorama, – 1999, 13 oktybar. – s.2.

[6] Аббасбейли, А. Азербайджан в системе международных и региональных организаций // А. Аббасбейли – Баку: Азернешр, – 1999. – 256 с.; Abbasov, N. Mədəniyyət siyasəti və mədəni irs (Kulturoloji təhlil).

dövründə Rusiya ilə əlaqələrin yaradılması və inkişafı, ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətləri, beynəlxalq mədəni əlaqələr kontekstində Azərbaycanın xarici siyasətində Rusiyanın və digər MDB dövlətlərinin yeri və rolundan bəhs edilir. M.Qasımlının monoqrafiyasında Azərbaycanın Rusiya ilə münasibətlərinin ümumi inkişaf dinamikası araşdırılmışdır[7]. H.Əliyev XXI əsr: Azərbaycan – MDB ölkələri (humanitar əlaqələr, 1991-2005-ci illər) kitabında Azərbaycan-Rusiya mədəni əlaqələri MDB ölkələri ilə humanitar əlaqələr kontekstində nəzərdən keçirilmişdir[8]. E.Məmmədovun monoqrafiyasında müstəqillik əldə etdikdən sonra Azərbaycan dövlətinin Rusiya ilə müxtəlif sahələrdə əlaqələrinin yaradılması və inkişafı məsələləri tədqiq

---

/N.Abbasov. – Bakı: ADMİU, –2011. –220 s.; Abdullayev, K. V. Putin, Heydər Əliyev //Azərbaycan. –2001, 11 yanvar. –s. 2. ; Həsənov, Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti /Ə.Həsənov. – Bakı: Azərbaycan nəşriyyatı, – 2005. 752 s.; Hüseynova, İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu / İ.Hüseynova. – Bakı: Təhsil, – 2004. – 470 s.; Qasımlı, M. Azərbaycanın xarici siyasəti (1991-2003): [2 hissədə]. – Bakı: Mütərcim, – h.1. – 2015. – 648 s.; Mahmudov, Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü /Y.Mahmudov. – Bakı: Təhsil, – 2011. – 547 s.; Məmmədov, E. Müasir dövrdə Azərbaycan - Rusiya əlaqələri /E.Məmmədov. – Bakı: Yazıçı, – 2014. – 184 s.; Мамедалиева С. Культура в эпоху глобализации / С.Мамедалиева. – Баку: Сада, – 2004. – 234 с.; Ахмедова, Т. Культура Азербайджана в условиях глобализации / Взаимодействия культур в условиях глобализации. – Москва: Конан+, – 2010. – 516 с.; Məmmədova S. Rusiya Federasiyasının mədəniyyət günləri // – Bakı: Mədəni- Maarif işi. – 2002. №4, s.4-5.; 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 aprel 2007-ci il tarixli sərəncamı. URL: http://www.e-qanun.az/framework/13001; Азербайджан-Россия: Подписан договор о дружбе, сотрудничестве и взаимной безопасности // Бакинск+ий рабочий, – 1992, 14 октября. –с.1.

[7] Qasımlı, M. Azərbaycanın xarici siyasəti (1991-2003): [2 hissədə]. – Bakı: Mütərcim, – h.1. – 2015. – 648 s.

[8] Əliyev, H.H. XXI əsr: Azərbaycan – MDB ölkələri (humanitar əlaqələr, 1991-2005-ci illər) / H.H.Əliyev. – Bakı: ULU, – 2008. – 316 s.

olunmuşdur[9]. 1991-2011-ci illəri əhatə edən bu monoqrafiyanın III fəsli iki ölkə arasındakı mədəni əlaqələrə həsr olunmuşdur. Monoqrafiyada qarşılıqlı əlaqələrin yalnız bəzi aspektlərini özündə əks etdirən materiallara yer verilmişdir ki, onlar da əsasən dövrü mətbuat materiallarıdır. Fəsildə Rusiyada fəaliyyət göstərən diaspor təşkilatlarının rolu da qısaca işıqlandırılmışdır. Rusiya-Azərbaycan mədəni münasibətlərində qonşu ölkədə fəaliyyət göstərən diaspor təşkilatlarının fəaliyyətinin işıqlandırılması baxımından M.Seyidbəylinin monoqrafiyası diqqəti cəlb edir[10]. Monoqrafiyada geniş materiallar əsasında Rusiyada Azərbaycan icmasının vəziyyəti, azərbaycanlıların milli-mədəni cəmiyyətləri haqqında ətraflı məlumat verilməklə yanaşı, Azərbaycan-Rusiya münasibətlərinin müxtəlif aspektlərinə də nəzər salınır. Kitabın bir bölməsində isə humanitar sahədə Rusiya-Azərbaycan əməkdaşlığı təhlil edilir. Rusiyada Azərbaycan diaspor təşkilatlarının mədəni fəaliyyətinin ayrı-ayrı cəhətləri həmçinin E.Kərimlinin[11], R.Hüseynovun[12], R.Məmmədovun[13], G.Novruzovanın[14] və başqalarının əsərlərində öz əksini tapmışdır. S.Əliyevanın fundamental monoqrafiyasında Şimali Qafqazda Azərbaycan

---

[9] Məmmədov, E. Müasir dövrdə Azərbaycan - Rusiya əlaqələri /E.Məmmədov. – Bakı: Yazıçı, – 2014. – 184 s.
[10] Сеидбейли, М. Азербайджанская диаспора в России: Особенности и тенденциии формирования и развития (1988-2010 гг.) /М.Сейидбейли. – Баку: Шарг-Гарб, –2011. –576 с.
[11] Kərimli, E. Moskvada Azərbaycan diasporu /E.Kərimli. – Bakı: Şuşa, – 2001. – 239 s
[12] Гусейнов, Р. Глядя из Москвы: год в жизни России и Азербайджана в репортажах, очерках и интервью российского журналиста / Р.Гусейнов. – Баку: Азернешр, – 2015. – 448 с.
[13] Мамедов, Р. Сыны Страны Огней в истории России: диаспора (2-е изд., испр. и доп.) / Р.Мамедов. – Баку: Зия, – 2011. – 320 с.
[14] Новрузова, Г. Азербайджанская диаспора Российскй Федерации: проблемы исторической демографии (1989-2002 гг.): / автореферат дис.. доктора философии по истории. /– Баку, 2010. – 28 с.

diasporu haqqında məlumat verilir[15]. Monoqrafiyada tarixi faktlar və sənədlər əsasında Azərbaycanla Şimali Qafqaz xalqları arasındakı siyasi, hərbi, iqtisadi, etnomədəni qarşılıqlı əlaqələrin zəngin tarixi araşdırılmış, bu zaman Azərbaycan dilinin Şimali Qafqaz xalqlarının mədəni inkişafında rolu xüsusi vurğulanmışdır. XX əsrin sonları XXI əsrin əvvəllərində Azərbaycan - Şimali Qafqaz münasibətlərinin müəyyən istiqamətləri də monoqrafiyada öz əksini tapmışdır.

N.Məmmədzadənin Azərbaycanın MDB və Şərqi Avropa ölkələri ilə qarşılıqlı münasibətlərinə həsr olunmuş və üç fəsildən ibarət monoqrafiyasının ikinci fəsli Rusiya ilə münasibətlərdən bəhs edir[16]. Fəslin bir bölməsi humanitar sahədə Azərbaycan-Rusiya əlaqələrinə həsr olunmuşdur.

İki dövlət arasında ictimai-siyasi əlaqələr və Azərbaycan cəmiyyətinə inteqrasiya olmuş rus icması, respublikamızda yaşayan Rusiya Federasiyası subyektləri xalqlarının ictimai təşkilatları və onların ölkəmizin ictimai-siyasi və mədəni həyatında rolu A.S.Rüstəmovanın əsərində elmi-kütləvi kontekstdə şərh edilir[17].

Müasir dövrdə Azərbaycanın Rusiya ilə əlaqələri Azərbaycanda nəşr edilmiş bir sıra məqalələr toplusunda[18] da işıqlandırılmışdır.

---

[15] Алиева, С. Азербайджан и народы Северного Кавказа XVIII- начало XXI века) / С.Алиева. – Баку: Şərq-Qərb, – 2010. – 620 с.

[16] Мамед-заде, Н. Взаимоотношения Азербайджанской Республики со славянскими странами СНГ и Восточной Европы / Н.Мамед-заде. – Баку: Ганун, – 2006. – 200 с.

[17] Rüstəmova A. Azərbaycan – Rusiya əlaqələri. Tarixi-biblioqrafik araşdırma (1992-2022) /A.Rüstəmova. – Bakı: "BİROL GROUP MMC", – 2023. –252 s.

[18] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri: 1991-2016 (məqalələr toplusu) / Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. – Bakı: Poliart MMC, – 2017. – 904 s.; Azərbaycan-Rusiya münasibətləri yeni müstəvidə // Dirçəliş - XXI Əsr, 2004, s. 14-17.; Азербайджан - Россия: новые взаимоотношения, новые горизонты. – Баку: Nurol, – 2002. – 575 с. ; Азербайджанская

Azərbaycan-Rusiya əlaqələri mövzusunun mədəni aspektləri daha çox elmi və publisistik məqalələrdə[19] öz əksini

---

Республика в Содружестве Независимых Государств. – Баку: Nurol, – 2001. – 287 с.; Взаимодействие культур в условиях глобализации //Материалы Международной научной конференции, посвященной памяти общенационального лидера азербайджанского народа Гейдара Алиева, – Москва: – 15-16 июня, – 2009 г. – Москва: Канон+ РООИ Реабилитация, – 2010. – 528 с.; Диалог культур в условиях глобализации: материалы Бакинского форума, посвященного памяти Гейдара Алиева. – М.: Канон+ РООИ Реабилитация, – 2012. – 616 с.; Культурная политика в Азербайджане: доклад, тезисы доклада / Министерство Культуры Азербайджанской Республики. – Баку: Нагыл эви, – 2004. – 254 с.; Российско-азербайджанские отношения за 20 лет: история и перспективы / Е. В. Бахревский [и др.]. – Баку: РИСИ - ЦСИ ПАР, –2011. – 124 с.

[19] Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələ: Azərbaycan-Rusiya danışıqları //Azərbaycan, –2001, 10 yanvar. –s. 2-3.;Azərbaycanda Rusiya Federasiyasının mədəniyyət günlərinin təntənəli açılışı mərasimi: Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. //Azərbaycan, 2004, – 13 iyun. – s.1-2; Azərbaycanda Rusiya mədəniyyəti günləri //Azərbaycan, – 1994, 8 aprel. –s.3.; Azərbaycanda Rusiya mədəniyyəti günləri: (iyunun 12-dən 16-dək ölkəmizdə keçirilən növbəti Rusiya mədəniyyəti günləri haqqında) //Azərbaycan, –2004, 13-17 iyun. –s.4.; Əməkdaşlıq protokolu imzalanmışdır: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyində respublikamızın və Rusiya Federasiyasının Mədəniyyət Nazirlikləri arasında əməkdaşlıq haqqında protokolunun imzalanması haqqında //Azərbaycan, – 1998, 11 mart. – s.1-2.; Hacızadə, A. Moskvada Azərbaycan mədəniyyəti günləri keçirilmişdir //Azərbaycan, –2007, 18 aprel. – s.3.; Hümbətov, İ. Mədəniyyət bayramı // Mədəni-Maarif işi, – 2000, №3. – s.4.; Qarayev, Ə. Mədəni inkişaf: 10 ilin uğurlu mənzərəsi //Mədəniyyət, – 2013, 20 sentyabr. – s.5.; Qarayev, Ə. Mədəniyyət və turizm davamlı inkişaf dövrünü yaşayır //Azərbaycan, – 2011, 15 oktyabr. – s.3.; Məmmədova S. Rusiya Federasiyasının mədəniyyət günləri // – Bakı: Mədəni- Maarif işi. – 2002. №4, – s.4-5.; Nuriyev, F. Moskvada Azərbaycan mədəniyyət günləri // Xalq, – 1999, 28 aprel. – s.2.; Sadıqov, A. Rusiyada Azərbaycan mədəniyyətinə böyük maraq var // Panorama, – 1999, 13 oktybar. – s.2.; Süleymanov, Ə., Həsənov, S. Azərbaycan-Rusiya munasibətləri: reallıqlar və perspektivlər //Azad Azərbaycan, – 2003, 8 fevral. –s.2.; Şahmuradov A.Ş. 1991-1995-ci illərdə Azərbaycan – Rusiya munasibətlərindəki problemlərə dair // –Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar Elmlər Seriyası, –2010, №2, –

tapmışdır. Bu məqalələrin, xüsusən dövrü mətbuatda getmiş məqalələrin sayı və xronoloji əhatə dairəsi kifayət qədər böyük olduğundan onların ayrı-ayrılıqda elmi təhlilini vermək çətinlik törədir. Ümumilikdə bu məqalələrdə iki dövlət arasında mədəni əlaqələrin inkişafı, mədəni əməkdaşlığın inkişaf etdirilməsi sahəsində dövlət başçılarının fəaliyyəti, mədəni əlaqələrin genişləndirilməsi ilə bağlı imzalanmış sənədlər, mədəniyyət təşkilatlarının qarşılıqlı səfərləri, mədəniyyət günləri haqqında çox zəngin faktoloji material mövcuddur və tədqiqatın gedişində onlardan səmərəli istifadə edilmişdir. Rus müəlliflərin Rusiya-Azərbaycan münasibətlərinə həsr edilmiş əsərlərində[20], xüsusən

---

s.193-197.; Азербайджан-Россия: Подписан договор о дружбе, сотрудничестве и взаимной безопасности // Бакинский рабочий, – 1992, 14 октября. –с.1.; Русская община – 20 лет в семье народов нового Азербайджана. URL: / http://old.xalqqazeti.com/ru/news/official/13742.; Рустамова, А.С. Деятельность общественных организаций Российских общин в Азербайджанской республике /Государство и право народов Кавказа: становление, развитие, современное состояние //Материалы Международной научно-практической конференции. Махачкала, 14–15 декабря 2018 г. (Сборник научных статей). –Махачкала: 2019, –248 с. – с.194-199.

[20] Взаимодействие культур в условиях глобализации //Материалы Международной научной конференции, посвященной памяти общенационального лидера азербайджанского народа Гейдара Алиева, – Москва: – 15-16 июня, – 2009 г. – Москва: Канон+ РООИ Реабилитация, – 2010. – 528 с.; Гаджиев, К. Геополитические перспективы Кавказа в стратегии России // – Москва: Мировая экономика и международные отношения, – 1993. №2, – с.20-37.; Гусман, М. Формула власти. 55 интервью в золотом галстуке /М.Гусман. – Москва: Терра – книжный клуб, – 2005. – 592 с.; Зенькович, Н. Ильхам Алиев: взгляд из Москвы /Н.Зенкевич. – Москва: Яуза: Эксмо, – 2008. – 512 с.; Колесниченко М. Внешнеэкономическая политика Азербайджанской Республики в 1991-2011 г.г. Автореф. дис. … канд. ист. наук. / – СПб., 2012, –24 с.; Цыганов, О. Ильхам Алиев: открытый мир = Ilham Aliyev: open world /О.Цыганов. – Москва: ИД Хроникер, – 2008. – 308 с.

S. Çernyavskinin[21] və Y.Pivovarın[22] kitablarında, Rusiyada nəşr edilmiş sənədlər və məqalələr toplularında[23] Rusiyanın Azərbaycanla tarixi, siyasi, iqtisadi əlaqələri ilə yanaşı, mədəni əlaqələrinə dair məlumatlar da öz əksini tapmışdır.

Qlobal dəyişikliklərin əsas nəticələrindən biri də mədəniyyətlərin qarşılıqlı əlaqəsi, xalqların mədəni identikliyi problemlərinə marağın artmasıdır. Mədəniyyət sahəsində qloballaşma mövzusu dünya ictimai elmində çoxdan tədqiq olunsa da, Azərbaycanda bu problemlə yalnız 90-cı illərin ortalarından daha yaxından məşğul olmağa başlanılıb. Müxtəlif elm sahələrinin nümayəndələri mədəni qloballaşma, mədəniyyətlərin qarşılıqlı təsirinin və qarşılıqlı əlaqələrinin formaları və nəticələri, mədəni transformasiyaların inkişaf istiqamətləri, Azərbaycanın müxtəlif ölkələrlə mədəni əlaqələrinin tarixi və müasir vəziyyəti, ölkəmizin ümumdünya mədəni prosesində iştirakı kimi mövzulara dair bir sıra samballı tədqiqatlar aparmışlar. Bu tədqiqatlar problemin daha geniş və daha dərindən araşdırılması üçün geniş material verir.

Göründüyü kimi, müstəqillik illərində, xüsusilə də 1990-cı və 2000-ci illərin ortalarına kimi olan dövr ərzində Azərbaycanın Rusiya ilə münasibətləri Vətən tarixşünaslığında yetərincə araşdırılmışdır. Lakin bu tədqiqatlarda daha çox münasibətlərin siyasi və iqtisadi aspektləri öyrənilmiş, mədəniyyət sahəsində Azərbaycanın Rusiya ilə qarşılıqlı əlaqələri ya ötəri nəzərdən keçirilmiş, ya ümumi şəkildə

---

[21] Румянцев С. Миграция и диаспоростроительство в постсоветском Азербайджане: основные тенденции и доминирующие дискурсы. Баку: Сабах, 2014, 165 с.; Чернявский, С. Десять лет истории Азербайджана: 2003-2013 годы / С.Чернявский. – Москва: Флинта, – 2013. – 400 с.; Чернявский, С. Новый путь Азербайджана / С.Чернявский. – Москва: Азерьмедиа «Книга и бизнес», – 2002. – 352 s.

[22] Xoşməramlı səfir: [5 cilddə]. – Bakı: Şəms, – c.5. – 2007. – 160 s.

[23] Независимый Азербайджан: новые ориентиры: монография: [в 2-х т.] / В. Г. Митяев [и др.]. – Москва: РИСИ, – Т. 1. – 2000. – 423 с.; Независимый Азербайджан: новые ориентиры: монография: [в 2-х т] / Э. М. Иванов [и др.]. – Москва: РИСИ, – Т. 2. – 2000. – 322 с.

araşdırılmış, ya da xronoloji cəhətdən daha məhdud zaman çərçivəsini əhatə etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə mədəni əlaqələri təşkil edir.

Tədqiqatın predmetini isə 1991-2013-cü illər ərzində Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında mədəni əlaqələrin fonunda dövlət rəhbərlərinin çıxışlarının, görüşlərinin, qəbul edilmiş dövlət proqramlarının, eləcə də mədəniyyət təşkilatlarının, hər iki ölkədə keçirilən mədəniyyət günlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın qarşısında qoyulan əsas məqsəd 1991-2013-cü illərdə Azərbaycanın Rusiya ilə qarşılıqlı münasibətlərinin inkişafında mədəni əlaqələrin yerini və rolunu araşdırmaqdan, Azərbaycan-Rusiya mədəni əməkdaşlığının inkişaf xüsusiyyətlərini üzə çıxarmaqdan ibarətdir. Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə humanitar-mədəni əlaqələrinin inkişaf mərhələləri və müasir vəziyyəti, bu sahədə mövcud olmuş problemlərin təhlili də dissertasiyanın məqsədləri sırasına daxildir. Bu məqsədlərə nail olmaq üçün tədqiqat prosesində aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Azərbaycan və Rusiya arasında müasir mədəni əlaqələrin tarixi, siyasi və mədəni-mənəvi şərtlərini üzə çıxarmaq;
- Sovet dövründə ikitərəfli mədəni əməkdaşlığın tarixi təcrübəsini təhlil etmək və əməkdaşlığın əsas forma və növlərini müəyyənləşdirmək;
- SSRİ-nin süqutu ilə iki müstəqil dövlətin - Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında siyasi və mədəni münasibətlərin inkişaf istiqamətlərini təhlil etmək;
- Müstəqil Azərbaycanın xarici siyasətində və beynəlxalq əlaqələrində Rusiya dövlətinin yerini və rolunu müəyyənləşdirmək;

- XX əsrin 90-cı illərində Azərbaycan-Rusiya münasibətlərində baş verən ziddiyyətli siyasi proseslərin mədəni əlaqələrə təsirini araşdırmaq;
- Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə münasibətlərinin formalaşmasında ümummilli lider Heydər Əliyevin rolunu göstərmək;
- Azərbaycan və Rusiya arasında münasibətlərin inkişafının prezidentlər İlham Əliyev və Vladimir Putinin xarici siyasi kursları arasında əlaqəsini araşdırmaq;
- mədəniyyət sahəsində bağlanmış saziş və müqavilələrinin elmi təhlilini vermək;
- təşkil edilən mədəni tədbirlərin ikitərəfli əlaqələrin inkişafında rolunu təhlil etmək;
- qarşılıqlı mədəni dialoqun yaranmasında iki ölkə arasında münasibətlərin möhkəmlənməsində mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinin verdikləri töhfələri işıqlandırmaq;
- Azərbaycan-Rusiya mədəni əlaqələrində Heydər Əliyev Fondunun və Fondun Rusiya Nümayəndəliyinin fəaliyyətinin elmi təhlilini vermək;
- Rusiya Federasiyası ilə qarşılıqlı əlaqələr sistemində mədəni əlaqələrin yerini və əhəmiyyətini təhlil etmək;
- Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə mədəniyyət sahəsində ortaya çıxan problemləri müəyyənləşdirmək və onların aradan qaldırılması üçün konkret təklif və tövsiyyələr irəli sürmək.

**Tədqiqat metodları.** Tədqiqatın metodlarının əsasını ümumi elmi metodlar təşkil edir. Problemin araşdırılmasında tarixi yanaşma, tənqidi-analitik üsuldan, müqayisəli təhlil, səbəb və nəticələrin əlaqəsi metodundan istifadə edilmiş, dünya tarix elminin və Vətən tarixşünaslığının nailiyyətləri nəzərə alınmışdır. Tədqiqatın gedişində tarixi-müqayisə və sistemli yanaşma metodu geniş tətbiq olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Müstəqil dövlət olaraq Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə qarşılıqlı mədəni əlaqələri 1991-ci ildən

başlasa da iki xalq arasında bu əlaqələr dərin tarixi köklərə malikdir. Çarizm dövründə formalaşmış mədəni əlaqələr Azərbaycan mədəniyyətinin inkişafına çox mühüm təsir göstərmişdir;

- Ziddiyyətlərlə dolu mürəkkəb sovet dövründə Azərbaycan mədəniyyəti rus və digər sovet xalqlarının mədəniyyətləri ilə çulğalaşaraq zənginləşmiş, mədəniyyətin yeni növləri yaradılmışdır. Həmin dövrdə mədəni əlaqələrin ən müxtəlif forma və metodlarından istifadə olunurdu;
- Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəniyyət sahəsində də münasibətlər bir neçə inkişaf mərhələsindən keçmişdir. 1991-1993-cü illərdə dövlətlərarası münasibətlərdə mövcud olan problemlər mədəni əməkdaşlığın aşağı səviyyəyə düşməsində səbəb olmuşdur;
- 1993-cü ildə Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə Azərbaycan-Rusiya münasibətlərində mövcud olan gərginliyin aradan qaldırılması istiqamətində mühüm addımlar atılmış, bu isə öz növbəsində mədəni əlaqələrin inkişafına müsbət təsir göstərmişdir. 2-4 iyul 1997-ci il tarixində Heydər Əliyevin RF-a ilk rəsmi dövlət səfəri və "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq həmçinin qarşılıqlı təhlükəsizlik barədə müqavilə"nin imzalanması bütün sahələrdə olduğu kimi mədəni əlaqələrin inkişafında da yeni mərhələnin əsasını qoydu;
- İki dövlət arasında siyasi və mədəni əlaqələr Vladimir Putinin prezidentliyi dövründə yeni forma və məzmun kəsb etmişdir;
- 2003-2013-cü illərdə Azərbaycan-Rusiya mədəni əlaqələri inkişaf edərək humanitar əməkdaşlığın müxtəlif sahələrini əhatə edirdi;
- Azərbaycan – Rusiya qarşılıqlı mədəni əlaqələrinə müsbət impuls verən amillər arasında hökumətlərarası saziş və müqavilələr, qarşılıqlı mədəni tədbirlər, o cümlədən Humanitar

əməkdaşlıq üzrə Azərbaycan-Rusiya forumları mühüm rol oynayırdı;

- Azərbaycan və Rusiya arasında mədəni əməkdaşlığın inkişafında Heydər Əliyev Fondu xüsusi rol oynayırdı. Rusiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları, Azərbaycanın rus icması, digər ictimai-humanitar təşkilatlar mədəni əlaqələrin inkişafına öz müsbət töhfələrini verirdilər;
- 1993-2013-cü illərdə Azərbaycanla Rusiya arasında mövcud mədəni əlaqələr sonrakı illərdə də inkişaf edərək, yeni məzmun kəsb etmiş, ikitərəfli münasibətləri müəyyənləşdirən əsas amillərdən birinə çevrilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya əsəri 1991-2013-cü illərdə Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə mədəni əməkdaşlıq təcrübəsinin elmi əsaslarla kompleks və sistemli şəkildə araşdırılan ilk tədqiqat işi kimi səciyyələndirilə bilər;

- tədqiqatda müxtəlif mənbələrdən toplanmış faktlar və materiallar sistemləşdirilmiş və təhlil edilmişdir;
- aparılmış tədqiqatlar nəticəsində iki dövlət arasında humanitar-mədəni əlaqələrin inkişaf dinamikasına dair Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsinin Rusiya regionu üzrə Komitənin, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin arxivlərindən yeni faktlar və materiallar dövriyyəyə daxil edilmişdir;
- Azərbaycan-Rusiya mədəni əməkdaşlığının hüquqi-normativ bazası təhlil edilmişdir;
- dissertasiyada ikitərəfli mədəni əməkdaşlığın hər iki ölkənin mədəni inkişafına, qarşılıqlı humanitar əlaqələrin genişlənməsinə, bütövlükdə regionda sülhün və sabitliyin inkişafına müsbət təsiri üzə çıxarılmışdır;
- tədqiqat işində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəniyyət sahəsində əlaqələrin inkişaf etdirilməsi və təkmilləşdirilməsi məsələləri işıqlandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti 1991-2013-cü illərdə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında mədəni əməkdaşlığın kompleks şəkildə təhlilə cəlb olunması ilə müəyyənləşir. Dissertasiyanın müddəaları, orada qoyulmuş məsələlər müasir beynəlxalq mədəni və humanitar əlaqələrin öyrənilməsi, Azərbaycanın mədəniyyətlərin dialoqunda iştirakının tədqiq edilməsi nöqteyi-nəzərindən də faydalı ola bilər. Tədqiqat işinin nəticələri bütövlükdə mövzuya dair elmi biliklərin genişləndirilməsi üçün əsas ola bilər.

Tədqiqat işinin materiallarından, əsas müddəalarından və nəticələrindən gələcək elmi araşdırmalarda, Azərbaycan Respublikasının Rusiya və MDB ölkələri ilə ikitərəfli və çoxtərəfli münasibətlərinə, beynəlxalq münasibətlər və siyasi tarixə dair ümumiləşdirilmiş əsərlərin hazırlanmasında, dərslik, dərs vəsaitlərinin yazılmasında, həmçinin Xarici İşlər və Mədəniyyət Nazirliyi sistemində, Rusiya Federasiyası ilə əlaqələrdə iştirak edən dövlət, hökumət, mədəniyyət xadimləri və ictimai təşkilatların fəaliyyətində, mədəni-dini əlaqələrlə, eləcə də tolerantlıqla bağlı beynəlxalq simpozium və konfranslarda, Azərbaycan-Rusiya münasibətlərinin araşdırıldığı müxtəlif elmi-mədəni tədbirlərdə, Azərbaycanın milli-mədəni dəyərlərinin təbliğində istifadə oluna bilər. Dissertasiya işi təhlil istiqamətləri və araşdırma üsulları baxımından, sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri və praktik əhəmiyyət daşıyır.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan-Rusiya əlaqələri tarixi" şöbəsində yerinə yetirilmişdir. Dissertasiya işinin əsas məzmunu 14 məqalədə (o cümlədən 5-i xaricdə, 4-ü elmi konfrans materiallarında (Azərbaycan Respublikası və Rusiya Federasiyası) əks olunmuşdur. **Tədqiqat işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiya ümumi həcmi.** Dissertasiyanın avtoreferatının ümumi həcmi (ədəbiyyat siyahısı istisna olunmaqla) 44.303 işarədən ibarətdir. Giriş: işarə sayı – 28.802, I fəsil: işarə sayı – 4.907, II fəsil: işarə sayı – 6.517, III fəsil: işarə sayı – 2.390, nəticə: işarə sayı – 1.687.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş bölməsində** mövzunun aktuallığı əsaslandırılmış, mövzunun işlənmə dərəcəsi təhlil edilmiş, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodları göstərilmiş, əsas müddəalar qeyd edilmiş, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, dissertasiya işinin aprobasiyası və quruluşu haqqında məlumatlar verilmişdir.

***"Azərbaycan Respublikasının Rusiya Federasiyasi ilə mədəni əlaqələrinin təşəkkülü(1991-1993-cü illər)" adlı I Fəsil*** iki yarımfəsildən ibarətdir. Birinci fəslin birinci yarımfəsli *"Azərbaycan - Rusiya qarşılıqlı mədəni əlaqələri tarixindən"* adlanır. Bu yarımbölmədə Azərbaycanın Rusiya ilə ticarət əlaqələrinin mövcud olduğundan bəhs edilir.

XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarının Rusiya ilə Qacarlar arasında bölüşdürülməsi ölkənin siyasi müstəqilliyinin itirilməsi, iqtisadi, siyasi, mənəvi vəhdətin pozulması ilə nəticələnsə də, mədəniyyətdə, ictimai fikirdə müəyyən mütərəqqi dəyişikliklərə də səbəb oldu. Azərbaycan ədəbiyyatının və folklorunun bir çox nümunələri rus dilinə çevrilərək müxtəlif dərgilərdə çap olunur. Kazan və Peterburq Universitetlərində tədqiqat aparan Mirzə Kazım bəy Azərbaycan tarixinə aid qiymətli mənbə olan "Dərbəndnamə"nin əlyazmaları əsasında tənqidi mətn hazırlamış, rus dilində şərhlər yazmış, Sədinin "Gülüstan"ını rus dilinə çevirmişdir.

M.F.Axundzadənin komediyalarının müəllif tərəfindən rus dilinə çevrilərək Rusiyada yayılması, "Московский

наблюдатель" jurnalında "A.S.Puşkinin ölümünə Şərq poeması"nın rus dilində çap olunması, rus oxucusu ilə Azərbaycan arasında mənəvi körpünün salınmasına səbəb olur.

Azərbaycan-rus mədəni əlaqələrinin ən geniş yayılmış formalarını iki xalqın ədəbi nümunələrinin tərcüməsi təşkil edirdi. A.A.Bakıxanov, A.Səhhət rus klassiklərinin əsərlərini tərcümə etmiş, eləcə də, Azərbaycan ədiblərinin əsərləri rus dilinə tərcümə edilirdi. "Molla Nəsrəddin", "Dəbistan", "Şərqi-rus" "Həyat", "Fiyuzat", "Kaspiy" kimi mətbuat orqanlarının səhifələrində rus ədəbiyyatının klassik və müasir nümunələri çap olunur və təbliğ edilirdi. Rusiyanın yaradıcı ziyalılarının nümayəndələrinin – A.M.Qorkinin, A.F.Pisemskinin, A.N.Ostrovskinin, G.N.Uspenskinin, V.Nemiroviç-Dançenkonun, A.P.Çexovun və 1912-1914-cü illərdə F.Şalyapin, L.V.Sabinov, S.V.Raxmaninov kimi klassik rus musiqiçilərinin Azərbaycana səfərləri burada rus mədəniyyətinin yayılmasına kömək edirdi.

Ü.Hacıbəyovun operaları və operettaları Moskvada, Peterburqda və başqa şəhərlərdə səhnələşdirilmiş, rus dilinə tərcümə olunmuşdu.

Yarımfəsildə göstərilir ki, sovet dövründə Azərbaycan və rus mədəniyyətlərinin bir-birinə yaxınlaşmasında hər iki ölkədə keçirilən ədəbiyyat və incəsənət günləri, festivallar, qastrol səfərləri mühüm rol oynamışdır. Zəngin mədəniyyəti olan xalq, xoşbəxt xalqdır. Millətindən asılı olmayaraq mədəniyyət insanların düşüncəsinə hakim olmaqla, qəlbini fəth etməklə xalqların kimliyini göstərir. [24]

Birinci fəslin ikinci yarımfəsli *"Müstəqilliyin bərpasından sonra Azərbaycanın Rusiya ilə mədəni əlaqələrinin vəziyyəti"* adlanır. 20 yanvar haqlı olaraq Azərbaycan xalqında Rusiyaya qarşı təbii qəzəb və hiddət doğurduğundan bunun iki

---

[24] Məmmədova Y. SSRİ-nin süqutu ərəfəsində Azərbaycan-Rusiya mədəni əlaqələri // – Bakı: AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutunun Elmi Əsərləri, –2016, – с.59.

xalq arasında mədəni əlaqələrə də çox mənfi təsir edəcəyi şübhəsiz idi. Bunu nəzərə alan, hər iki tərəfdən olan bir qrup mütərrəqi ziyalılar, iki xalq arasında mədəni əlaqələrin pozulmaması üçün "Rusiya-Azərbaycan Dostluq Cəmiyyəti"ni təsis etdilər. 20 yanvar faciəsindən sonra baş tutan tədbirdə rus bəstəkarı Aleksandr Çaykovski plenumun keçirilmə şəraitini belə səciyyələndirmişdi: *"Fövqəladə vəziyyət şəhərində zərif simfoniyalar dinlədim. Doğrusu, Yanvar faciəsindən sonra belə bir tədbiri keçirmək üçün ürəyində təpər tapan xalqın mətanətinə heyranlığımı gizlədə bilmirəm".*[25] Beləki, 20 yanvar faciəsinə öz etiraz səsini bildirən ziyalılar arasında A.Proxanov, O.Süleymanov və A.Çaykovski var idi.

Rusiya ərazisində yaranmış dostluq cəmiyyətləri, Ümumrusiya Azərbaycanlıları Konqresi və Rusiya azərbaycanlılarının Federal Milli Mədəni Muxtariyyəti Rusiya və Azərbaycan xalqları arasında dostluq münasibətlərinin inkişafında, mədəni əlaqələrin genişlənməsində mühüm rol oynadılar.

İkinci yarımfəsildə Azərbaycanlı tələbələrin Rusiyada keçirilən müsabiqələrdə iştirakı, teatr kollektivlərinin Rusiya səhnələrindəki tamaşaları, Azərbaycanda sovet rəssamlarının simpoziumu, Moskva və Sankt-Peterburqda XII əsr dahi Azərbaycan şairi Nizami Gəncəvinin 850 illik yubileyinin qeyd olunması məsələləri öz əksini tapmışdır.

Azərbaycanın müstəqilliyinin ilk illərində Rusiya Federasiyası ilə münasibətlər və mədəni əlaqələr qurmağın əsas ağırlığı Moskvadakı "Dayaq", "Azəri", Sankt-Peterburqdakı "Azərbaycan Milli Mədəniyyət Mərkəzi", Kemerovadakı "Bulaq" və başqa cəmiyyətlərin üzərinə düşürdü.[26].

---

[25] Hüseynova, L. Azərbaycan Bəstəkarlar İttifaqı: Böyük yolun tarixi /İ.Hüseynova. – Bakı: E.L. NPŞ MMC, – 2010, s.275.

[26] Moskvada "Dayağ"ımız var //Mədəniyyət, – 1991, 25 aprel. – s. 1.

1992-ci ildə Bakıda "Azərbaycan-Rusiya" cəmiyyətinin təsis konfransının iştirakçıları Azərbaycan və Rusiya parlamentlərinə müraciət qəbul etdilər.[27]

Qeyd etmək lazımdır ki, müstəqilliyin ilk illərində Rusiyanın geosiyasi-geostrateji mövqelərini bərpa etməkdə israrlı olan irticaçı qüvvələr Moskvanın yaxın xariclə əlaqələrinin normal məcraya yönəlməsinə mane olurdu. 1992-ci il aprelin 4-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlər haqqında saziş imzalandı[28].

***Azərbaycan - Rusiya qarşılıqlı münasibətlərinin inkişafında mədəni əlaqələrin yeri və rolu (1993-2003-cü illər) məsələləri*** II Fəsildə araşdırılmışdır. Bu fəsil iki yarımfəsildən ibarətdir. *"Qarşılıqlı mədəni əlaqələrdə yeni mərhələnin başlanması (1993-1997-ci illər)"* adlanan birinci yarımfəsildə 1993-1997-ci illərdə Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin genişlənməsi məsələləri araşdırılır.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, Rusiyanın bəzi siyasi və hərbi qüvvələrinin onu dəstəkləməsi, müstəqilliyə təhlükə törədirdi. 1993-cü ilin iyununda hakimiyyətə gələn Heydər Əliyev müstəqilliyin qorunub saxlanması yollarından birini Rusiya Federasiyası ilə münasibətlərin bərpa olunmasında gördü və 1993-cü ilin sentyabr ayında Rusiya Federasiyasına səfəri zamanı qeyd

---

[27] Azərbaycan – Rusiya" cəmiyyəti yaradılmışdır //Xalq, – 1992, 31 iyun. – s.3

[28] Rüstəmova A.S.Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əlaqələr: Azərbaycanda Rus İcması // "Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər" mövzusunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Respublika elmi-praktiki konfransın materialları.
– Bakı: İqtisad Universiteti Nəşriyyatı, – 2021. – s.574.

edirdi: *“İndiki görüşlər imkan verdi ki, inamsızlıq “buzunu” əridək”.*[29]

Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin yaxşılaşdırılması ikitərəfli mədəni əlaqələrə də öz müsbət təsirini göstərdi. 1994-cü ilin martında Moskva Böyük Teatrının solistləri Azərbaycan Dövlət Opera və Balet Teatrınının səhnəsində P.Çaykovskinin “Qu gölü” (Sonalar gölü) baletində əsas rolda çıxış etdilər.[30]

Yarımfəsildə Azərbaycan və Rusiya rəssamlarının qaşılıqlı sərgilərinin mədəni əlaqələrə təsirindən bəhs edilir. Belə sərgilərdən birini Moskva mətbuatı “Azərbaycanın müasir təsviri sənətinin özünəməxsus kamertonu” adlandırmışdı”.[31]

1994-cü il noyabrın 17-də Moskvada keçirilən klassik Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə iştirak edən Heydər Əliyev demişdir: *“Rus və Azərbaycan xalqlarının incəsənəti, mədəniyyəti bir-birlərilə o qədər sıx bağlıdırlar ki, bu əlaqələri məhv etmək heç zaman mümkün deyil.”.*[32]

1995-ci il 6 iyun tarixində mədəniyyət sahəsində Azərbaycan-Rusiya münasibətlərini tənzimləyən “Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında mədəni və elmi əməkdaşlıq haqqında saziş” bağlandı.[33]

1993-1997-ci illərdə hər iki ölkənin mədəniyyət və incəsənət xadimlərinin qarşılıqlı səfərləri intensiv olmuşdur. İki dövlət arasında mövcud olan ziddiyyətlər və problemlər mədəni əlaqələrdən də yan keçməmişdir. Lakin onu da qed etmək yerinə

---

[29] Азербайджан - Россия: новые взаимоотношения, новые горизонты. – Баку: Nurol, – 2002. – с.9.

[30] Qaradağlı, S. “Ulduzlar” Bakıda //Mədəniyyət, – 1994, 5 mart. s. 2.

[31] Moskvada fərdi sərgi //Azərtac, – 1994, 30 may.

[32] Азербайджан-Россия: Подписан договор о дружбе, сотрудничестве и взаимной безопасности // Бакинский рабочий, – 1992, 14 октября. –с.1.

[33] Rusiya Federasiyası Mədəniyyət Nazirliyi ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş, (16 iyun 1995-ci il) //ARMTN Beynəlxalq əlaqələr/ Rusiya / inventar № 351.

düşər ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsi hər iki tərəf üçün vacib əhəmiyyət daşıyır.[34]

İkinci bölmənin ikinci yarımfəsli *"Ölkələr arasında mədəni əməkdaşlığın genişlənməsi (1997-2003-cü illər)"* adlanır. Bu yarımfəsildə göstərilir ki, 1997-ci ildən Rusiyanın hakim dairələrində baş verən kadr dəyişiklikləri, Prezident Heydər Əliyevin Moskvaya ilk rəsmi səfəri və keçirdiyi çoxsaylı görüşlər Rusiyanın Azərbaycan siyasətində, eləcə də iki ölkə arasındakı mədəni əlaqələr sahəsində ciddi dəyişikliklərə səbəb olmuşdur. 1997-ci ilin aprel ayının 1-də Azərbaycanda keçirilən Rusiya Federasiyasının mədəniyyət günləri zamanı Rusiyalı qonaqları qəbul edən Heydər Əliyev dedi: *"Sizlər Rusiyanı yüksək səviyyədə məharətlə və layiqincə təmsil etdiniz. Yüksək incəsənəti başa düşən, duyan bizim Azərbaycan tamaşaçısının sizi ürəkdən alqışlaması məni çox sevindirir".*[35]

1997-ci il aprel ayının 29-da Mstislav Rostropoviçin yubileyinin Bakıda keçirilməsi və ona "Şöhrət" ordenininin təqdim edilməsi böyük mədəni hadisə kimi yadda qaldı.[36]

Heydər Əliyevin 1997-ci il iyul ayında Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinin dəvəti ilə Moskvaya səfəri zamanı "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" imzalandı.[37] Müxtəlif sahələri geniş və əhatəli təsbit edən müqavilədə mədəniyyət məsələləri də öz əksini tapdı.

---

[34]Мамедова Я. «Культура как моральный мост между народами» //Материалы конференции «Кавказоведение история и современность», –Магас, 2017. – с.418.

[35] Azərbaycanda Rusiya Federasiyasının mədəniyyət günləri //Xalq, – 1997, 4 aprel. – səh 2.

[36] Azərbaycan Prezidenti Heydər Əliyev Böyük musiqiçi Mstislav Rostropoviçi qəbul etmişdir //Azərbaycan. – 1997, 30 aprel. – s. 3.

[37] Əliyev, H. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. –Bakı: Azərnəşr, – c.10. –2002. – 472 s.s.102

Bu yarımfəsildə M.Maqomayevin yubileyinin, İmam Şamilin 200 illik yubileyinin keçirilməsi, Nikas Safronovun sərgisinin təşkili, XX əsrin görkəmli rus balerinası Mayya Plisetskayanın Bakıya səfəri, Mstislav Rostropoviçin dirijorluğu ilə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti, Moskva Akademik Satira Teatrının və Gennadi Xazanovun tamaşası, Moskvada keçirilən Azərbaycan Mədəniyyəti günləri, Azərbaycanda Dağıstan Mədəniyyət günlərinin keçirilməsindən bəhs edilir.

1998-ci il martın 10-da Azərbaycan Respublikasının və Rusiya Federasiyasının mədəniyyət nazirlikləri arasında imzalanan əməkdaşlıq protokolu mədəni tədbirlərin genişlənməsinin hüquqi dəstəyi oldu.[38]

1999-cu il noyabrın 5-də Bakıda "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2000-2002-ci illər üzrə mədəniyyət, elm və təhsil sahələrində uzunmüddətli əməkdaşlıq proqramı" imzalandı.[39]

2002-ci il iyun ayının 9-da Sankt-Peterburqun Kamennostrovski prospektindəki bağda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin Heydər Əliyevin də iştirak etdiyi açılış mərasimində çıxış edən Rusiya Federasiyasının yeni Prezidenti Vladimir Putin qeyd etdi: *"Nizaminin yaradıcılığı bizim hamımıza, bütün bəşəriyyətə mənsubdur."*[40]

---

[38] Əməkdaşlıq protokolu imzalanmışdır: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyində respublikamızın və Rusiya Federasiyasının Mədəniyyət Nazirlikləri arasında əməkdaşlıq haqqında protokolunun imzalanması haqqında //Azərbaycan, – 1998, 11 mart. – s.1-2

[39] Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2000-2002-ci illər üzrə mədəniyyət, elm və təhsil sahələrində uzunmüddətli əməkdaşlıq proqramı (Bakı 5 noyabr 1999-cu il) URL: http://www.e-qanun.az/framework/4480

[40] Dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılış mərasimi //Azərbaycan, –2002, 11 iyun. s.1.

Yarımfəsildə Bakıda Baş kafedral kilsənin açılışının tolerantlığın Azərbaycanda gündəlik həyat tərzinə çevrilməsindən bəhs edilir.[41]

Müstəqilliyin ilk illərində eyni coğrafi məkanda yerləşən, çoxəsrlik tarixi, siyasi-iqtisadi və mədəni əlaqələrə malik olan qonşu rus xalqı ilə mədəni əlaqələrin qorunub saxlanması və inkişaf etdirilməsi regionda sülhə, firavanlığa xidmət etmişdir. Ölkədə rus dilinin inkişaf etdirilməsi bu münasibətlərin genişlənməsi üçün daha geniş imkanlar açdı.[42]

***"Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əməkdaşlıq münasibətlərinin yeni mərhələsi (2003-2013-cü illər)"*** **adlanan üçüncü fəsil** də iki yarımfəsildən ibarətdir. *"Azərbaycanın Rusiya ilə Humanitar-mədəni əlaqələrinin inkişafı"* adlanan birinci yarımfəsildə göstərilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ilin fevral ayında Rusiya Federasiyasına ilk rəsmi səfəri zamanı humanitar sahədə əməkdaşlıq proqramı da qəbul edildi. V.Putinin qeyd etdiyi kimi, *"Zəngin mədəni potensialı, elmdə, incəsənətdə və təhsildə ənənəvi surətdə sıx əlaqələri olan dövlətlərimiz üçün bu istiqamətin son dərəcə böyük əhəmiyyəti vardır."*[43] Bu yarımfəsildə Rusiyada Azərbaycan ilinin, Azərbaycanda Humanitar forumların keçirilməsi, hər iki ölkədə mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə keçirilən tədbirlər, kitab festivalı, sərgilər haqqında geniş bəhs edilərək göstərilir ki, 2003-2013-cü illər mədəni

[41] Məmmədova Y. Dini tolerantlıq Fondu xalqımızın zəngin mənəviyyatının göstəricisidir // –Gəncə: Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, –2018. № 2, – s.299-303.

[42] Мамедова Я. «К истории азербайджано-российских культурных связей в постсоветский период» // –Москва: Современная Научная Мысль. – 2021, № 3 – стр.101-111. с.111.

[43] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyaya rəsmi səfərə yola düşmüşdür //Azərinform. – 2004, 6 fevral.; Əliyev, İ. İnkişaf – məqsədimizdir: [çoxcildlik] / İ. Əliyev. – Bakı: Azərbaycan, – c.2. – 2009. – 432 s. –s.198

əlaqələrin genişlənməsinə xidmət edən tədbirlərlə zəngin olmuşdur.

*"Heydər Əliyev Fondunun ikitərəfli mədəni əməkdaşlığın inkişaf etdirilməsində rolu"* adlanan ikinci yarımfəsildə Heydər Əliyev Fondunun Humanitar sahədəki geniş fəaliyyətindən, Fondun Rusiya Nümayəndəliyinin Azərbaycan-Rusiya mədəni və humanitar əlaqələrinin genişlənməsində göstərdiyi xidmətlərdən bəhs edilir. Göstərilir ki, Heydər Əliyev Fondunun Prezidenti M.Əliyeva göstərdiyi xidmətlərə görə "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə, "Qızıl ürək" beynəlxalq mükafatına layiq görülmüşdür. Heydər Əliyev Fondunun Rusiya Nümayəndəliyinin rəhbəri Leyla Əliyeva Azərbaycan-Rusiya əlaqələrini yüksək qiymətləndirərək deyir: "*Ölkələrimiz arasında həmişə çox yaxşı mədəni münasibətlər olmuşdur. İndi biz bu ənənəni davam etdirib yeni nəsillərə ötürməliyik".*[44] Bu yarımfəsildə həmçinin Leyla Əliyevanın sədrliyi ilə Rusiyada yaşayan azərbaycanlı gənclərin ictimai təşkilatı – RAGT-nın fəaliyyətindən, onun iki ölkə arasındakı əlaqələrə verdiyi töhvələrdən də bəhs edilir.

Heydər Əliyev Fondunun yarandığı gündən qarşılıqlı mədəni əlaqələr fondun əsas prioritet istiqamətlərindən biri olmuşdur. Fond Rusiya Federasiyasının digər regionlarında da geniş fəaliyyət göstərmişdir.[45]

**Nəticə.** Beləliklə, mənbə və ədəbiyyatın araşdırılması göstərir ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında mədəni əlaqələr hər zaman olsa da, bu əlaqələr Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə daha da dərinləşmişdir. Qəbul edilmiş mədəniyyət proqramları, hər iki ölkədə keçirilən mədəniyyət günləri, yubiley tədbirləri mədəni əlaqələrin

---

[44] Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyini öz fəaliyyətini genişləndirir //Xalq, – 2008.- 5 fevral. – s.3.

[45] Мамедова Я."Фонд Гейдар Алиева: Духовный мост между народами» // –Gəncə: Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər, –2019, №1. – c.278.

genişlənməsinə şərait yaratmışdır. Ölkədə keçirilən Humanitar Forumlar da mədəni əlaqələrin inkişafına öz töhfəsini vermişdir.

Azərbaycan və Rusiya arasında humanitar və mədəni əməkdaşlığın inkişafında Heydər Əliyev Fondunun xüsusi rolu olmuşdur. Fond 2005-ci ildən Rusiyada bir sıra xeyriyyə aksiyaları keçirir, mədəni tədbirlərin təşkilatçısı kimi çıxış etmişdir.

2007-ci ildən Rusiyada fəaliyyət göstərən Heydər Əliyev Fondunun Rusiya Nümayəndəliyi və nümayəndəliyin rəhbəri Rusiyadakı Azərbaycanlı Gənclərinin Əlaqələndirmə Şurasının sədri Leyla Əliyevanın təşəbbüsü ilə humanitar məzmunlu müxtəlif layihələr, tədbirlər həyata keçirilmişdir.

Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış Rusiya Azərbaycanlı Gənclər Təşkilatın (RAGT) Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əlaqələrin genişlənməsinə xidmət etmişdir.

Ölkələrimiz arasında mədəni əməkdaşlığının həyata keçirilməsində qeyri-hökumət təşkilatlarının, vətəndaş birliklərinin mühüm rolu olmuşdur.

Azərbaycanla Rusiya arasında mədəni əlaqələrin mühüm amillərindən biri də ölkədə rus dilinə müsbət münasibətdir. Azərbaycanın rus millətindən olan vətəndaşlarına ölkənin sosial-iqtisadi, siyasi və mədəni həyatında iştirak etmək üçün bütün şərait yaradılmışdır. Rus icması – iki xalq arasında real birləşdirici həlqədir. Bakıdakı Rus Pravoslav Kilsəsi rus icmasının mədəni və mənəvi irsinin, adət və ənənələrinin qorunub saxlanılmasında mühüm rol oynayır.

Bütün bunlar ölkələrimiz arasında tərəfdaşlıq, dostluq, mehriban qonşuluq münasibətlərinin mövcud olduğunu bir daha təsdiq edir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdaki məqalələrində öz əksini tapmışdır:**

1. SSRİ-nin süqutu ərəfəsində Azərbaycan-Rusiya mədəni əlaqələri // – Bakı: AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Əsərləri, –2016, – c.59, – s.80-86.

2. «К вопросу об Азербайджано- российских культурных связях в 1991-1993 гг» // – Москва: Современная Научная Мысль. – 2018, № 3, – с. 123.
3. Dini tolerantlıq Fondu xalqımızın zəngin mənəviyyatının göstəricisidir // –Gəncə: Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, –2018, № 2, – s.299-303.
4. Klassik Azərbaycan və rus şairləri A.S.Puşkin ilə Nizami Gəncəvinin iki xalq arasında mədəni əlaqələrdə tarixi rolları // –Naxçıvan: AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, "Axtarışlar" jurnalı, –2019, c.9, №1(31), –s.28-33.
5. "Фонд Гейдар Алиева: Духовный мост между народами» // –Gəncə: Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər, –2019, №1.– c.273-279.
6. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında siyasi və mədəni əlaqələrin yenidən qurulmasında ümummilli lider Heydər Əliyevin rolu (1993-2003) // –Gəncə: Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər, – 2019, №2. –s. 170-174.
7. Azərbaycan və Rusiya Federasiyası mədəni əlaqələrində Heydər Əliyev Fondunun rolu // Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illiyinə həsr olunmuş "Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində" mövzusunda doktorant, magistr və tələbələrin Elmi-praktik konfransının materialları (22 noyabr, 2019) – Bakı: Slavyan universiteti, – 2019, s.147-149.
8. «К истории азербайджано-российских культурных связей в постсоветский период» // – Москва: Современная Научная Мысль. – 2021, № 3 – стр.101-111.
9. Из истории изучения Азербайджано-Российских историко-культурных связей. // – Нальчик: Научные Известия. – 2021, № 3 – стр. 55-61.
10. Məmmədova Y. Qarabağ münaqişəsi dövründə Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında əlaqələr //Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda

11. Роль азербайджанской диаспоры в развитии культурных связей с Россией (2000-2015) // «Образование. Культура. Общества»: сборник избранных статей по материалам Международной Научной Конференции (Санкт-Петербург, июнь 2022) – СПб.: ГНИИ, «Нацразвитие», – 2022, – 56 с.
12. SSRİ-nin süqutu: Azərbaycan – Rusiya münasibətləri // – Gəncə: Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, Fundamental, humanitar və təbiə elmləri seriyası. – 2021, №1, – s.36-40.
13. Rusiya Federasiyasında Azərbaycan diasporunun fəaliyyətinə dair / Diaspor Quruçuluğu: Lobbiçilik və Dünya Azərbaycanlılarının Həmrəyliyi, Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. –Bakı: 2024. –358 s. –s. 146-157.
14. Некоторые аспекты изучения Азербайджано-Российских связей // Проблемы обеспечения общественной безопасности: теория, история, практика. Научно-Исследовательский Институт Истории, Экономики и Права / Москва, 2024. –236 с. – с.188 -200

Dissertasiyanın müdafiəsi ___13___ ___mart___2025-ci il tarixində saat ___13⁰⁰___-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 saylı Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1073, Bakı şəhəri, H. Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "___12___" "___fevral___" 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.02.2025

Kağızın formatı: A5

Həcm: 47001

Tiraj: 100